Mədəniyyət.- 2023.- 21 iyul. S. 1.

# Kitabxanalara işə qəbul üzrə müsahibənin nəticələri elan edilib

Mədəniyyət Nazirliyi sistemində olan kitabxanalar üzrə vakant vəzifələrin tutulması məqsədilə 4-14 iyul 2023-cü il tarixlərində kitabxanalara işə qəbul üzrə keçirilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmiş namizədlərin nəticələri bəlli olub.

Müsahibə mərhələsində iştirak etmək üçün Mədəniyyət Nazirliyi tərəfindən elan edilən vakant vəzifələrə qeydiyyatdan keçən 108 namizəddən 104-ü imtahanda iştirak edib. Onlardan 30 nəfər tələb olunan keçid balını toplayıb, 25 nəfərin seçdikləri müvafiq vəzifələrə uyğun olaraq təyinatı ilə bağlı qərar qəbul edilib. 5 nəfər isə ehtiyat kadrlar siyahısına əlavə edilib.

Nəticələrə dair şikayəti olan şəxslər 20-24 iyul 2023-cü il tarixlərində apellyasiya@culture.gov.az elektron poçt ünvanı vasitəsilə nazirliyin Apellyasiya Şurasına müraciət edə bilərlər.